2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri Ramiz Ibrahimov və Samir Tağıyevin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 dekabr 2014-cü il tarixli 70 və 71 saylı müraciətlər üzrə

**BİRGƏ RƏYİ**

Bakı şəhəri 29 dekabr 2014-cü il

Biz, ekspert qrupunun üzvləri Ramiz Ibrahimov və Samir Tağıyev 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Yalavac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mehdiyev İlham Misli oğlu və Paşayev Xudaş Həsrət oğlunun 2014-cü il dekabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərini araşdırarkən aşağıdakıları müəyyən etdik:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Yalavac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mehdiyev İlham Misli oğlu və Paşayev Xudaş Həsrət oğlu 2014-cü il dekabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, həmin seçki dairəsinin 40, 41, 42 və 43 saylı seçki məntəqələrində səsvermə başa çatdıqdan sonra protokolların tərtib edilməsi ilə bağlı qanun pozuntularına yol verildiyini iddia edərək səsvermənin nəticələrinin etibarsız hesab edilməsini xahiş etmişlər.

Müraciətlər ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edildikdən sonra eyni seçki dairəsindən eyni məzmunlu müraciətlər olduğu müəyyən edilmiş və ekspert qrupu koordinatoru məlumatlandrılmaqla bir icraatda birləşdirilərək araşdırılmışdır.

Ərizəçilər 29 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək şikayətdən imtina etdiklərini və ərizələrinin baxılmamış saxlanılmasını xahiş etmişlər. Belə olan halda müraciətlərin araşdırılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i k :**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsi üzrə Yalavac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mehdiyev İlham Misli oğlu və Paşayev Xudaş Həsrət oğlu şikayətlərindən imtina etdiklərinə görə 27 dekabr 2014-cü il tarixli 70 və 71 saylı müraciətin araşdırılmasına xitam verilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

| | |
|---|---|
| Ekspert qrupunun üzvü | Ramiz İbrahimov |
| Ekspert qrupunun üzvü | Samir Tagıyev |